Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Qarapapaqların və qaraqalpaqların etnik tarixinə müqayisəli-tipoloji kontekstdə baxış



**Nizami Tağısoy**
*professor*

***Son onilliklərdə Azərbaycan, Cənubi Azərbaycan və Türkiyə alim və tədqiqatçıları ardıcıl olaraq qarapapaqların mənşəyi, tarixi, adət-ənənələri, folkloru, həyat tərzi, məskunlaşdıqları coğrafiya və s. bağlı araşdırmalar aparır, etnosun keçmişinə müxtəlif mövqelərdən yanaşmağa səy göstərirlər. Qarapapaqların tarixinə belə maraq, həm də Borçalıda "Qarapapaqlar" jurnalının nəşr olunması xüsusi impuls vermiş, proses bir qədər intensivləşməyə başlamışdır. Digər tərəfdən etnosun mənşəyi ilə bağlı xeyli məsələlər vardır ki, bunlar problemin əsaslı çözülməsini daha da aktuallaşdırır. Bu materialın ortaya çıxması məhz qeyd olunan problemin gündəmi xüsusi olaraq zəbt etməsi ilə bağlıdır.***

Qarapapaqların etnogenetik tarixini dərindən izlədikdə müəyyən etdik ki, onlar bir qövm kimi özü-özlüyündə yox, digər qövmlərlə daha çox, xüsusilə qaraqalpaqlar, qarabörklülər, xəzərlər, qıpçaqlar, qazaxlar və digər tayfalarla geneoloji bağlılıqda olmuşlar. Bu materialda biz tanınmış alim və tədqiqatçıların araşdırmalarına və öz müşahidələrimizin nəticələrinə əsaslanaraq belə yanaşmanın nə qədər praqmatik olduğunu sübut etməyə çalışmışıq.

Materialı hazırlayarkən biz dünya alimlərinin problemlə bağlı mülahizələrini saf-çürük etmiş, bu və ya digər nəzər nöqtələrini çalın-çarpaz istiqamətlərdə bir-biri ilə müqayisəli-tipoloji kontekstdə fikirlərimizə yardımçı mənbə olaraq ortaya qoymuşuq. Odur ki, müqayisəli-tipoloji yanaşma metodu bizimçün praqmatik təhlil imkanı yaratmışdır ki, biz də bu metoda söykənib, konkret nəzəri-tarixi konsepsiyanın ortaya çıxmasına nail olmuşuq.

"Qarapapaqların etnik kimliyi" ilə bağlı problemi biz ardıcıl olaraq qazax və qaraqalpaq xalqlarının etnoqrafiyası, folkloru, keçmişi, ədəbiyyatı, etnos və epos problemlərini öyrənən dövrdən əsaslı araşdırmağa çalışmışıq. "Karakalpakskaya literatura", "Xəzərlər", "Qaraqalpaq ədəbiyyatı" və başqa bu kimi problemlərə baxış sərgiləyərkən qaraqalpaqların qarapapaq və qarabörklülərlə yetərincə oxşarlığını və eyniliyini müəyyən etmişik. Bu materialın ortaya çıxması adlarını qeyd etdiyimiz türk tayfalarının etnik kimliyinin daha əsaslı araşdırılmasını gündəmə gətirən ən mühüm amillərdəndir.

Həyatın elə tarixi dönəmləri olmuşdur ki, vaxtilə dünyaya meydan oxuyan hunlar, tkyu, peçeneq, xəzər, kuman, polovets və başqa bu kimi adlar altında yaşamış qədim etnoslar zaman keçdikcə az qala yer üzündən tamamilə silinmə təhlükəsi altında qalmışlar. Sonrakı dövrlərdə baş verən siyasi, hərbi, ideoloji, miqrasiya və mədəni proseslər zəminində az qala onlarla bağlı informasiyalar da tarixin arxivinə ötürülmüşdür. Nəticədə belə vəziyyət bu etnos və xalqların daha dürüst yaradılıcaq tarixi mənzərəsinə nəzərəçarpacaq kölgə salmışdır. Adlarını çəkdiklərimizin sırasına haqqında danışacağımız qarapapaq türklərini də aid etməyə ehtiyac vardır.

40 ildən artıqdır ki, biz türk xalqlarının etnik mədəniyyəti, etnogenezi, etnopsixologiyası, etnofəlsəfəsi, dünya baxışları, folkloru, eposu, epik və poetik təfəkkürü, mənəvi ənənələri, həyat tərzi, ədəbi-bədii dünyası və s. istiqamətlərdə ardıcıl araşdırmalar aparır, bu xalqların keçmişi və çağdaş durumu ilə bağlı təsəvvürlər və mülahizələr irəli sürürük. Bu tipli türk xalqlarından biri hazırda Özbəkistan Respublikası ərazisində daha kompakt yaşayan qaraqalpaqlardır. Biz onların tarixinə dərindən nüfuz edərkən qaraqalpaqların xeyli (etnik, dini, fəlsəfi, psixoloji, mənəvi və s.) keyfiyyət və xarakteri ilə bağlı çoxsaylı məqamların qarapapaq türklərində təzahürünü sezmişik. Eyni zamanda bildirək ki, əgər qaraqalpaqlar tarixə məlum olduqları dövrdən özlərinin etnik kimliyini və özünü hifzetmə instinktini qoruyub digər türk qövmləri arasında assimilyasiyaya məruz qalmamağı bacarmışlarsa, qarapapaqlarla belə hal baş verməmişdir.

Hələ 1980-ci illərin sonlarından biz qaraqalpaqlarla bağlı əsaslı tədqiqatlar aparmağa başladığımız dövrlərdə xalqın tarixi keçmişini kifayətqədər fundamental məxəzlərə söykənərək araşdırmağa cəhd edib, onların nağıl eposu, lirik nəğmələri, adət-ənənələri və dünyabaxışlarını öyrənərkən şüuraltı şəkildə qaraqalpaqlarla, qarapapaqlar, xəzərlər və qaqauzların tarixi arasında etnik tale oxşarlığı görmüşük. Qaraqalpaq tarixinin parlaq aynası hesab edilən L.S.Tolstovanın "Xarəzm oazisindən kənarda yaşayan qaraqalpaqlar XIX-XX əsrin əvvəlləri"; "Qaraqalpaq tarixi və etnoqrafiyası üzrə Xivə xanlarının arxiv sənədləri"; S.K.Kamalovun "Qaraqalpaqlar XVIII-XIX əsrlərdə"; M.K.Nürmühəmmədov, T.A.Jdanko, S.K.Kamalovun "Qaraqalpaqlar"; "XIX-XX əsrin əvvəllərində Qaraqalpakiyanın təsərrüfatı"; "Qaraqalpaq Muxtar Sovet Sosialist Respublikasının tarixi. II cilddə. Birinci cild"; "Qaraqalpaq sovet ədəbiyyatı tarixi"; "Qaraqalpaq ASSR-nin tarixi (qədim dövrlərdən bizim zamana qədər)"; K.M.Maksetovun "Qaraqalpaq eposu" və s. yanaşı, türkiyəli araşdırmaçı professor Salih Yılmazın nəşr etdirdiyi "XVI-XX yüzillərdə Qaraqalpaq türkləri tarixi və bunlardan başqa çoxsaylı tarixi, mədəni, etnik, etnoqrafik, ədəbi, bədii, elmi məxəzlərdən istifadə etdiyimiz vaxtlarda qarapapaqlarla qaraqalpaqlar arasında yaxınlığı hiss edir, görürdük.

IX əsrin sonlarından türklərin Sibir və Altay regionlarından Volqaboyu, Türküstan, Amudərya, Sırdərya çayları və Orta Asiya səhralarına, az sonra bu ərazilərdən Xəzərin, Qafqazın, Dərbəndin digər regionlarına kütləvi axınlarının başlaması da tarixi və coğrafi mənbələrdə yetərincə təqdim olunmuşdur.




Bizə belə gəlir ki, qarapapaqların tarixinə gəldikdə isə nədənsə bu qövmün keçmişinin sistemli və ardıcıl öyrənilməsində nəzərəçarpacaq varislik əlaqələri özünü indiyə qədər nə antropoloji, nə etnoloji, nə genetik, nə geneoloji, nə tarixi, nə də hər hansı digər müstəvilərdə ortaya qoyulmamışdır. Eyni zamanda bu da məlumdur ki, tarixi inkişaf dövründə etnosun, xalqın keçmişi ilə onun indisi və gələcəyi arasında məntiqə söykənən hər hansı həlqə qırıldıqdan sonra bərpa edilmirsə, bu zaman xalqla bağlı söylənilən mülahizələr inandırıcılıqdan və konseptuallıqdan uzaq olur. Biz bunu da bilirik ki, qarapapaqların keçmişi ilə indisi arasında geneoloji əlaqələrin göstərilməsində bugünkü Gürcüstan, keçmiş Göncəbasar, Qərbi Azərbaycan, Cənubi Azərbaycan və Türkiyə Respublikasının Cənub-Şərq bölgələrini əhatə edən coğrafiyalarda yaşayan qarapapaqların tarixi taleyinə doğru-dürüst işıq salmağa böyük ehtiyac vardır. Burada onu da vurğulayaq ki, indiyə qədər mövcud yanaşmalarda əsasən bir sıra adət-ənənə, xalqın deyim xüsusiyyətləri, qarapapaqların Rus imperiyasına qarşı mücadiləsi və s. kimi məsələlər əksər hallarda bir mənbədən o biri mənbələrə ötürülür və onlar əsasən heç bir halda daha dərinləşdirilmiş şəkildə qarapapaqlarla bağlı bilgilərimizi zənginləşdirmir. Məhz bu üzdən də qarapapaqların keçmişinə bir qədər obyektiv və tarixi məxəz və materialların köməyi ilə zond salmağa ehtiyac duyulur. Qeyd edək ki, türk xalqlarının etnogenetik bağları müəyyənləşdirilərkən türk qövmləri arasında olan müxtəlif tipli əlaqələrin yerini və rolunu bilmədən heç bir halda konseptual elmi mülahizələr ortaya çıxarmaq da mümkün olmur.

***Türk xalqlarının əslində dünyanın çeşidli coğrafiyalarında yerləşməsi və bu yerləşmənin səbəbləri dürüst müəyyənləşdirilmədən hər hansı bir fundamental bilgi əldə etmək də tarixilik baxımından mükəmməl olmur. Belə bir qənaətdəyik ki, türk etnoslarının ana vətəni olan Altaydan başlanğıcını götürən yol türk tarixinin və türk sivilizasiyasının araya-ərsəyə gəldiyi regiondur. Bundan başqa bu faktı inandırıcı şəkildə təkzib edən fundamental əsərlər də mövcud deyildir. Geniş Avrasiya materiki məkanında Hind-Avropa, türk-monqol, fin-uqor, tunqus-mancur və digər etnosların qarşılıqlı ünsiyyəti mövcud olan bu regionda skiflər və saklar, əfsanəvi hunlar və sarmatlar yaşamış, qədim türklər özlərinin möhtəşəm Türk xaqanlığı adlı dövlətini qurmuşlar. Başqa sözlə desək, Altay sivilizasiyası dünyanın bir-birinə qaynayıb-qarışdığı region kimi məşhurdur...***

***40 ildən artıqdır ki, biz türk xalqlarının etnik mədəniyyəti, etnogenezi, etnopsixologiyası, etnofəlsəfəsi, dünya baxışları, folkloru, eposu, epik və poetik təfəkkürü, mənəvi ənənələri, həyat tərzi, ədəbi-bədii dünyası və s. istiqamətlərdə ardıcıl araşdırmalar aparır, bu xalqların keçmişi və çağdaş durumu ilə bağlı təsəvvürlər və mülahizələr irəli sürürük. Bu tipli türk xalqlarından biri hazırda Özbəkistan Respublikası ərazisində daha kompakt yaşayan qaraqalpaqlardır. Biz onların tarixinə dərindən nüfuz edərkən qaraqalpaqların xeyli (etnik, dini, fəlsəfi, psixoloji, mənəvi və s.) keyfiyyət və xarakteri ilə bağlı çoxsaylı məqamların qarapapaq türklərində təzahürünü sezmişik...***

**(ardı gələn sayımızda)**

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur***